## Bu il «Elektron hökumət» internet portal istifadəyə veriləcək

Azərbaycanda «Elektron hökumət» layihəsi çərçivəsində görülən işlər davam etdirilir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən verilən məlumata görə, «Elektron hökumət portalı»nın birinci versiyası hazırlanmış və bu ilin yay-payız aylarında vətəndaşlar və iş adamları üçün açıq elan ediləcəkdir. Hazırda portala 16 mərkəzi icra orqanı qoşulmuşdur. Bu dövlət orqanlarından Daxili İşlər, Nəqliyyat, Vergilər nazirlikləri daha böyük fəallıq nümayiş etdirirlər. Sözügedən portala hazırda mərkəzi icra orqanlarının 60-a yaxın elektron xidməti inteqrasiya olunub və proses davam etdirilir.

«Elektron hökumət» internet portalı istifadəyə verildikdən sonra mərkəzi icra orqanlarının buraya qoşulması davam etdiriləcək və nəticədə bütün mərkəzi icra orqanlarının həmin saytda elektron xidmətləri əks olunacaq. Həmçinin, əhali portala daxil olaraq xidmətlərin siyahısı ilə tanış olub onlardan istifadə edə biləcək.

Elektron imzanın tətbiqi üzrə Milli Sertifikat Xidmətləri Mərkəzinin yaradılması isə dövlət orqanlarına, vətəndaşlara və biznes qurumlarına elektron imza xidmətlərinin göstərilməsi üçün əlverişli şərait yaratmışdır. Onu da qeyd edək ki, 2013-cü ilin ikinci yarısınadək ölkədə 300-ə yaxın elektron xidmətin istifadəyə verilməsi nəzərdə tutulur.

Yeri gəlmişkən, ölkəmizin ən böyük dövlət portallarından biri olan İnternet Vergi İdarəsinin fəaliyyətə başlaması vergi ödəyicilərinin işini əhəmiyyətli dərəcədə asanlaşdırmışdır. Bu portalın fəaliyyətə başlaması ilə bəyannamə və hesabatların elektron qaydada göndərilməsi mümkün olmuşdur. Elektron sistemin tətbiqi ümumilikdə bəyannamələrin tərtib edilməsi və onların vergi orqanına göndərilməsi üçün lazım olan vaxtı 3 dəfəyədək azaltmışdır. Artıq vergi ödəyiciləri tərəfindən Vergilər Nazirliyinə daxil olan bəyannamələrin orta hesabla 90%-dən çoxu elektron formada göndərilir. Bu göstərici istər MDB, istərsə də Şərqi Avropa ölkələrində 60-75% çivarındadır.

Gələcəkdə vergilərin dövlət büdcəsinə ödənilməsində də Vergilər Nazirliyinin internet portalından geniş istifadə olunması nəzərdə tutulur.

Rəşad SADIQOV